ədalət.- 2021.- 20 mart.- S.11.

# Nizami və musiqi

**Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Şifahi ənənəli Azerbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: Orqanologiya və Akustika" elmi-tədqiqat laboratoriyasında 2021-ci il 18 mart tarixində elmi işçi Nigar Bayramovanın onlayn seminarı keçirildi.**

Prezident İlham Əliyev imzaladığı Sərəncamla bu il ölkəmizdə "Nizami Gəncəvi İli" elan edilib. 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olması ilə əlaqədar olaraq, Nigar Bayramova "Nizami ve musiqi" adlı məruzə ilə çıxış etdi.

N. Bayramova qeyd etdi ki, dünya poeziyasında "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarını birləşdirən "Xəmsə" ilə şöhrət qazanan Nizami Gəncəvinin bədii irsi dövrümüzdə də müasirliyi ilə seçilir. Onun yaşadığı dövrdən artıq doqquz əsr keçsə də, o, yenə də yaşayır, onun adı daima çəkilir, hər bir oxucusuna böyük mənəvi zövq verir. Nizami Gəncəvinin zəngin yaradıcılığı poeziya sevərlərin həmişə diqqət mərkəzində olmuşdur. Çünki onun ölməz "Xəmsə"sinə daxil olan müxtəlif mövzulu poemaları və lirik şeirləri dərin məzmunu ilə geniş oxucu kütləsini özünə cəlb edir. Nizami yaradıcılığı və obrazı əsasında yaradılan əsərlər tez-tez səhnələrdə görünməkdə, konsert salonlarında səslənməkdədir. Nizami poeziyası elə bir tükənməz mənbədir ki, neçə illər keçsə belə, tədqiqatçıların onun irsində indiyə qədər deyilməmiş fikirləri aşkar edərək nizamişünaslığa və eləcə də musiqişünaslığa yeni əsərlər töhfə verəcəkləri şəksizdir.



Dünya ədəbiyyatının klassiki sayılan Nizami Gəncəvinin zəngin məzmunlu, yüksək ideyalı əsərlərində əks etdirdiyi insan zəkası, əxlaqi keyfiyyətlər, ədalətli, azad cəmiyyət, məhəbbəti tərənnüm edən çağırışlar və həmçinin şəxsiyyəti yaradıcı insanları həmişə düşündürmüşdür. Onlar Nizamiyə bir mütəfəkkir-şair kimi yanaşmış, yaradıcılığını isə ən qiymətli mənbə hesab etmişlər, bu obraz və mənbədən bəhrələnərək, axtarışlarını və istəklərini gerçəkləşdirərək Nizamiyə həsr olunan ən gözəl əsərlərini yazmışlar. Nizaminin əsərlərinə bəstələnən və obrazına ithaf olunan musiqi əsərləri Azərbaycan mədəniyyətinin ən qiymətli inciləridir. Təkcə Üzeyir Hacıbəylinin şairin qəzəllərinə yazdığı "Sənsiz" və "Sevgili canan" musiqili qəzəllərinin, Qara Qarayevin "Yeddi gözəl" baletinin, "Leyli və Məcnun" simfonik poemasının, Niyazinin "Xosrov və Şirin" lirik-romantik operasının, Fikrət Əmirovun "Nizami" baletinin, "Nizami" simfoniyasının adlarını çəksək, Nizami yaradıcılığının milli musiqimizin inkişafında nə qədər böyük rol oynadığını təsdiqləyə bilərik. Bu əsərlər musiqisevərlər üçün tükənməz ilham mənbəyidir.

Məruzəçi seminar boyu mövzu ilə bağlı çoxlu sayda musiqi materiallarından istifadə edərək slayd şəklində əməkdaşlara təqdim etdi.

**Seminarda elmi-tədqiqat laboratoriyasının müdiri sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmailzadə, baş elmi işçi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Arif Əsədullayev, xalq artisti Zümrüd Məmmədova, aparıcı elmi işçi, bəstəkar Rüfət Ramazanov seminar haqda öz sözlərini bildirdilər.**

**Zərifə Bayramova**